*«Qeydə alınmışdır»*
***Azərbaycan Respublikası***
***Ədliyyə Nazirliyində***
***Qeydiyyat № 2715***
***14 sentyabr 2001-ci il***
***Nazir***
***F. MƏMMƏDOV***

*«Təsdiq edilmişdir»*
***Azərbaycan Respublikası***
***Rabitə Nazirliyi***
***Əmr № 234***
***29 avqust 2001-ci il***
***Nazir***
***N. ƏHMƏDOV***

# Rabitə qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə inzibati tənbehlərin tətbiqi haqqında Qaydalar

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli Fərmanına müvafiq olaraq hazırlanmışdır.

1.2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş məsuliyyət həddlərinə müvafiq olaraq Qaydaların əsas məqsədi rabitə qaydaları əleyhinə olan törədilmiş inzibati xətalara görə məsuliyyəti müəyyən etmək, onun təkrar olunmaması üçün tədbirlər görməklə aradan qaldırılmasını təmin etmək, qanunçuluğu möhkəmləndirməkdir.

1.3. Rabitə Qaydaları əleyhinə olan inzibati xətaları törədən fiziki və hüquqi şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq bu Qaydalarla *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxsləri tərəfindən inzibati tənbeh növləri tətbiq edilir.

1.4. Rabitə qaydaları dedikdə rabitə haqqında Azərbaycan Respublikası qanunvericiliyi (o cümlədən *«Telekommunikasiya haqqında», «Poçt rabitəsi haqqında»~~, «Rabitə haqqında»~~ Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.12.2005-ci il tarixli, 227 saylı qərarı ilə təsdiq edilmiş «Telekommunikasiya şəbəkələrinin, vasitə və qurğularının mühafizə Qaydaları»,* Azərbaycan Respublikası Rabitə Nazirliyinin 31.08.1999-cu il tarixli 141 saylı əmri ilə təsdiq edilmiş (Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 08.09.1999-cu il tarixdə 188 sıra nömrəsi ilə qeydə alınmış «Ümumi rabitə şəbəkəsindən istifadə qaydaları») ilə *telekommunikasiya, poçt rabitəsi sahələrində* müəyyən edilmiş tələblər nəzərdə tutulur.

1.5. Rabitə qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə barəsində inzibati tənbehlərin tətbiqi haqqında *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxslərinin qəbul etdiyi qərarlarla razılaşmayan şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə şikayət edə bilərlər.

## 2. İnzibati məsuliyyətə cəlb etmə müddətləri

2.1. İnzibati tənbeh rabitə qaydaları əleyhinə olan inzibati xətanın törədildiyi gündən ən geci 2 ay keçənədək tətbiq edilə bilər (İXM-nin 36.1-ci maddəsi).

2.2. Rabitə qaydaları əleyhinə davam edən inzibati xətalara görə inzibati tənbeh onun aşkara çıxarıldığı gündən ən geci 2 ay keçənədək tətbiq edilə bilər (İXM-nin 36.2-ci maddəsi).

## *3. Şəxsin inzibati məsuliyyətə cəlb edilməmiş sayılması üçün tələb olunan müddət*

3.1. Barəsində inzibati tənbeh tətbiq edilmiş şəxs tənbehin icrasının qurtardığı gündən etibarən bir il ərzində rabitə qaydaları əleyhinə olan yeni inzibati xəta törətməmişsə, o, inzibati məsuliyyətə cəlb edilməmiş sayılır (İXM-nin 37-ci maddəsi).

## *4. İnzibati tənbeh tətbiq etmənin ümumi qaydaları*

4.1. İnzibati xətaya görə tənbeh Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tətbiq edilir.

4.2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 169-180-ci*, 183-1-ci, 240-1.3-cü və 240-1.4-cü* maddələri ilə nəzərdə tutulmuş rabitə qaydaları əleyhinə olan inzibati xətaları törədən şəxslər barəsində həmin Məcəllənin müvafiq maddələri ilə müəyyən edilmiş inzibati tənbeh növləri *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* vəzifəli şəxsləri tərəfindən tətbiq edilir.

4.3. *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxsləri yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən rabitə qaydaları əleyhinə olan inzibati xətalar haqqında *işləri və ya materialları üç günədək müddətində yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yer komissiyaya baxılmaq üçün göndərirlər.*

4.4. *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxsləri rabitə qaydaları əleyhinə olan inzibati xətalara görə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına inzibati cərimə tətbiq edə bilməzlər.

4.5. Fiziki və ya hüquqi şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən inzibati xətanın xarakteri, inzibati xəta törədən şəxsin şəxsiyyəti, onun təqsirinin dərəcəsi, maliyyə və əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar nəzərdə alınır.

4.6. İnzibati tənbehin tətbiq edilməsi həmin inzibati tənbehə səbəb olmuş öhdəliklərin yerinə yetirilməsindən şəxsi azad etmir.

4.7. İnzibati xətaya görə aşağıda göstərilən hallar məsuliyyəti yüngülləşdirən hallar hesab edilir:

4.7.1. İnzibati xətanı törətmiş fiziki şəxsin səmimi peşimançılığı, hüquqi şəxs tərəfindən inzibati xətanı törədilmə faktının rəsmi etirafı;

4.7.2. törədilmiş inzibati xətanın zərərli nəticələrinin inzibati xətanı törətmiş şəxs tərəfindən aradan qaldırılması və ya vurulmuş zərərin əvəzini könüllü surətdə ödənilməsi.

4.8. İnzibati xətaya görə aşağıda göstərilən hallar məsuliyyəti ağırlaşdıran hallardır:

4.8.1. hüquqazidd hərəkətin dayandırılması barədə səlahiyyətli şəxslərin tələblərinə baxmayaraq, bu hərəkətin davam etdirilməsi;

4.8.2. rabitə qaydaları əleyhinə olan inzibati xətaya görə inzibati tənbeh almış şəxsin eyni xətanı bir il ərzində təkrar törətməsi;

4.8.3. inzibati xətanın bir qrup şəxs tərəfindən törədilməsi;

4.8.4. inzibati xətanın təbii fəlakət şəraitində və ya başqa fövqəladə şəraitdə törədilməsi.

4.9. Bir şəxs rabitə qaydaları əleyhinə olan iki və ya daha çox inzibati xəta törətdikdə onun barəsində hər bir inzibati xətaya görə ayrılıqda inzibati tənbeh tətbiq edilir. *Bir şəxsin törətdiyi bir neçə inzibati xətaya dair işlərə eyni vaxtda Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin eyni səlahiyyətli vəzifəli şəxsi tərəfindən baxıldıqda, bir neçə inzibati xəta törətmiş həmin şəxs daha ciddi xətaya görə müəyyən edilmiş sanksiya (cərimə) çərçivəsində tənbeh edilir.*

## *5. İnzibati xətalar haqqında işlər üzrə icraat*

*5.1. Rabitə qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısı Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri tərəfindən təsdiq edilir (Əlavə №3).*

5.2. İnzibati xətalar haqqında işlər üzrə icraata başlama üçün əsas göstərilən səbəblər aşağıdakılardır:

5.2.1. inzibati xəta hadisəsinin mövcudluğunu göstərən kifayət qədər halların *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxsi tərəfindən bilavasitə aşkar edilməsi (İXM-nin 169-180-ci, *183-1-ci, 240-1.3-cü və 240-1.4-cü* maddələri ilə nəzərdə tutulmuş inzibati xətalar üzrə);

5.2.2. dövlət orqanlarından materialların daxil olması (İXM-nin 169-180-ci, *183-1-ci, 240-1.3-cü və 240-1.4-cü* maddələri ilə nəzərdə tutulmuş inzibati xətalar üzrə);

5.2.3. fiziki və hüquqi şəxslər tərəfindən təqdim edilən məlumatlar, onların ərizələri, habelə KİV-lərdə elan olunmuş məlumatlar (İXM-nin 169-180-ci, *183-1-ci, 240-1.3-cü və 240-1.4-cü* maddələri ilə nəzərdə tutulmuş inzibati xətalar üzrə).

5.3. İnzibati xəta haqqında iş üzrə icraat müvafiq protokolun (*Əlavə № 1*) tərtib edilməsindən başlanmış hesab edilir.

5.4. Rabitə Qaydaları əleyhinə olan inzibati xəta haqqında protokolda aşağıdakılar göstərilir:

5.4.1. protokolun tərtib edildiyi yer və tarix;

5.4.2. protokolu tərtib edən şəxsin iş yeri, vəzifəsi, soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, onun yuxarı təşkilatı, bankdakı hesab №-si və bankın adı;

5.4.3. qanun pozuntusunun tərkibi, ona yol verilməsi vaxtı, dövrü və yeri;

5.4.4. inzibati xətanın törədilməsinə görə məsuliyyət nəzərdə tutulan İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi;

5.4.5. qanunu pozan şəxsin adı, soyadı, atasının adı, iş yeri, yaşayış yeri.

5.5. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin, habelə zərər çəkmiş şəxsin inzibati xəta haqqında protokolun surətini almaq hüququ vardır (İXM-nin 410.4-cü maddəsi).

5.6. İnzibati xətanın törədilməsi faktı aşkar edilərsə, dərhal inzibati xəta haqqında protokol tərtib edilir.

5.7. İşin hallarının, inzibati xəta törətmiş fiziki şəxsin və ya hüquqi şəxs barəsində məlumatların əlavə aydınlaşdırılması tələb olunduğu hallarda protokol inzibati xətanın aşkar edildiyi vaxtdan iki günədək müddətdə tərtib edilir (İXM-nin 411.2-ci maddəsi).

5.8. *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxsi inzibati xəta haqqında iş üzrə icraatın aşağıdakı hallara görə dayandırılması barədə qərar qəbul edə bilər:

5.8.1. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs qaçıb gizləndikdə və ya digər səbəblərdən olduğu yer müəyyən edilmədikdə;

5.8.2. fiziki şəxs psixi və ya digər ağır xəstəliyə tutulduqda;

5.8.3. inzibati xətanı törədən şəxs müəyyən olunmadıqda.

5.9. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş əsaslar yarandıqda *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxsi rabitə qaydaların əleyhinə olan inzibati xəta haqqında işin icraatına xitam verilməsi barədə qərar qəbul edir (İXM-nin 416, 367-ci maddələri).

5.10. *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxsi rabitə qaydaları əleyhinə olan inzibati xəta haqqında işə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada baxaraq inzibati tənbeh növünün tətbiq edilməsi haqqında qərar qəbul edir (qərarın nümunəsi bu Qaydalara əlavə edilir).

5.11. Rabitə qaydaları haqqında iş üzrə qərarda aşağıdakılar göstərilir:

5.11.1. qərarı çıxarmış *Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin* səlahiyyətli vəzifəli şəxsinin vəzifəsi, soyadı, adı, atasının adı;

5.11.2. işin baxılması tarixi və yeri;

5.11.3. işinə baxılan şəxs haqqında məlumat (fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, iş yeri, hüquqi şəxsin hüquqi adı, hüquqi rekvizitləri);

5.11.4. işə baxılarkən müəyyən edilmiş hallar;

5.11.5. rabitə qaydaları əleyhinə olan inzibati xətaya görə məsuliyyət nəzərdə tutan İXM-nin ~~15-ci fəslinin~~ müvafiq maddəsi;

5.11.6. iş üzrə icraatın xitam edilməsi və ya dayandırılması üçün əsas olan İXM-nin müvafiq maddəsi;

5.11.7. qərardan şikayət verilməsi müddəti və qaydası.

## *6. İnzibati cərimənin tətbiqi*

6.1. Qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçməmiş elektromaqnit şüalanma mənbələri sayılan rabitə vasitələrinin və ya teleradio verilişlərinin yayımı və ötürülməsi üçün istifadə olunan rabitə vasitələrinin və digər texniki vasitələrin əldə edilməsinə, qurulmasına və ya istismarına, bu vasitələrin realizə edilməsi qaydalarının pozulmasına və radioşüalanmanın texniki normalarına riayət edilməməsinə görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* iyirmi beş mislindən otuz beş mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* iki yüz mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 169).

6.2. Qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icazə olmadan rabitə şəbəkələrinə və ya vasitələrinə qoşulmağa görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* otuz beş mislindən qırx mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* yüz əlli mislindən iki yüz mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 170).

6.3. Radioelektron, radiorabitə vasitələrinin və yüksəktezlikli qurğuların istehsalına, əldə edilməsinə, idxalına, istifadəsinə və qeydiyyatına dair qanunla müəyyən edilmiş qaydaların pozulmasına və ya tezliklərdən bütün təyinatlı radioelektron vasitələrinin və yüksəktezlikli qurğuların işi üçün istifadə olunmasına və ya teleradio verilişlərinin qəbuluna maneələr törədilməsinə görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* otuz mislindən qırx mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* yüz səksən mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 171).

6.4. Rabitə vasitələrinin, xətlərinin və qurğularının qanunvericiliklə müəyyən edilmiş mühafizə qaydalarının pozulmasına və ya rabitə vasitələrinin, xətlərinin və ya kabel qurğularının zədələnməsinə görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* otuz mislindən qırx mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* iki yüz əlli mislindən üç yüz mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 172).

6.5. Poçt ödənişi nişanlarının (poçt markaları, markalı zərf və açıqcalar) və digər poçt ödəniş nişanlarının və başqa filateliya əşyalarının qanunsuz olaraq buraxılmasına və ya onların dövriyyəsi qaydalarının pozulmasına görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* iyirmi beş mislindən otuz beş mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* yüz səksən mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (İXM, maddə 173).

6.6. Rabitə fəaliyyətinin həyata keçirilməsi zamanı rabitə xidməti qaydalarının pozulmasına, yəni mövcud standartlara, norma və qaydalara, habelə müqavilə şərtlərinə

əməl edilməməsinə görə — *şərti maliyyə vahidinin* on mislindən otuz mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 174).

6.7. Qanunvericiliklə sertifikatlaşdırılması tələb olunan sertifikatlaşdırılmamış rabitə vasitələrindən istifadə edilməsinə və ya onların realizə edilməsinə~~, yaxud rabitə xidmətlərinin işə buraxılmasına görə~~ — fiziki şəxslər *şərti maliyyə vahidinin* iyirmi beş mislindən otuz beş mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* yüz iyirmi mislindən yüz qırx mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 175).

6.8. Rabitə şəbəkələrinin və qurğularının layihələşdirilməsi, inşaatı və istismarının müəyyən edilmiş qaydalarının və normalarının pozulmasına görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* on beş mislindən iyirmi beş mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* iki yüz mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 176).

6.9. Dövlət əhəmiyyətli elektrik rabitə xətlərində baş vermiş qəzanın aradan qaldırılmasına qəzanın baş verdiyi yerin mülkiyyətçisi və ya istifadəçisi tərəfindən maneçilik törədilməsinə görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* iyirmi beş mislindən otuz beş mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* iki yüz mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 177).

6.10. Rabitə vasitələrinin, qurğularının, xətlərinin mühafizə zonalarında müvafiq icazə olmadan tikinti işlərinin və ya digər işlərin aparılmasına görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* otuz mislindən qırx mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* iki yüz mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 178).

6.11. Ümumi istifadəli avtomat telefonlarının zədələnməsinə görə — *şərti maliyyə vahidinin* otuz mislindən qırx mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 179).

6.12. Rabitə sistemlərindən, qurğularından və xətlərindən istifadə etməklə qazanc məqsədilə rabitə xidmətlərinin göstərilməsinə və ya rabitə şəbəkələrindən və vasitələrindən bu məqsədlə istifadə edilməsinə görə — fiziki şəxslər *şərti maliyyə vahidinin* otuz beş mislindən qırx mislinədək miqdarda, hüquqi şəxslər *şərti maliyyə vahidinin* iki yüz mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 180).

> *6.12.1. Sertifikatlaşdırılmamış elektron imza və elektron sənəd dövriyyəsi vasitələrindən istifadə edilməsinə görə — fiziki şəxslər şərti maliyyə vahidinin iyirmi mislindən iyirmi beş mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidinin əlli beş mislindən yetmiş mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidinin iki yüz mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 1831.1).*

> *6.12.2. İnformasiya sisteminin mülkiyyətçisi tərəfindən bu sistemin fəaliyyətinin təhlükəsizliyinin təmin edilməməsinə, informasiya sisteminin müəyyən edilmiş qaydada ekspertizadan keçirilməməsinə görə — fiziki şəxslər şərti maliyyə vahidinin iyirmi mislindən iyirmi beş mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidinin əlli beş mislindən yetmiş mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidinin iki yüz mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 1831.2).*

*6.12.3. Sertifikat xidmətləri mərkəzi tərəfindən imza yaratma məlumatlarının və imza sahibi barəsində məlumatların mühafizəsinin, sertifikatdakı məlumatların tamlığının və düzgünlüyünün, sertifikat xidmətlərinin keyfiyyətinin və dəqiqliyinin təmin edilməməsinə, sertifikatın qüvvəsinin qanunsuz dayandırılması və ya ləğv edilməsinə, sertifikatın istifadəsinə təsir edə bilməsi məlum olmuş məlumatların imza sahibinə vaxtında çatdırılmamasına görə — fiziki şəxslər şərti maliyyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidinin əlli mislindən yetmiş mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidinin yüz əlli mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 1831.3).*

*6.12.4. Elektron sənədlərin saxlanmasında, ötürülməsində, qəbulunda vasitəçinin informasiya sistemindən etibarlı istifadəni təmin edən texnika və texnologiyalara, bilikli, təcrübəli və səriştəli işçi heyətə, xidmət göstərilmiş elektron sənədlərin vaxtını və mənbəyini təyin etməyə imkan verən şəraitə, həmin elektron sənədlərin vaxtı və mənbəyi haqqında informasiyanın saxlanması üçün etibarlı sistemə malik olmamasına görə — fiziki şəxslər şərti maliyyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidinin əlli mislindən yetmiş mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidinin yüz əlli mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir (ARİXM, maddə 1831.4).*

*6.12.5. Abunəçiyə məxsus telefon nömrəsinə aid olan rabitə xəttinə qanunsuz olaraq daxil olmaqla danışıqlar aparma, zərərçəkmiş şəxsə az miqdarda ziyan vurmaqla törədildikdə - şərti maliyyə vahidinin iyirmi mislindən qırx mislinədək miqdarda cərimə edilir (AR İXM, maddə 172-1, qeyd: bu maddədə «az miqdarda» dedikdə, şərti maliyyə vahidinin min mislinədək olan miqdarı başa düşülür).*

*6.12.6. Elektron ticarətdə elektron sənəd dövriyyəsi vasitəçisi tərəfindən xidmət göstərdiyi alıcıların (sifarişçilərin), satıcıların (təchizatçıların) qanunsuz fəaliyyəti və ya qanunsuz informasiya ötürməsi barədə səlahiyyətli dövlət orqanlarına məlumatın verilməməsinə və ya səlahiyyətli dövlət orqanlarının müraciətinə əsasən xidmətlərin alıcılarının (sifarişçilərinin), satıcıların (təchizatçıların) müəyyənləşdirilməsinə imkan verən məlumatların təqdim edilməməsinə görə - fiziki şəxslər şərti maliyyə vahidinin otuz beş mislindən qırx mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidinin doxsan misli miqdarında, hüquqi şəxslər şərti maliyyə vahidinin üç yüz misli miqdarında cərimə edilir (AR İXM, maddə 240-1.3.).*

*6.12.7. Elektron ticarətdə elektron sənəd dövriyyəsi vasitəçisi tərəfindən məhkəmənin qərarı və ya qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanının müraciəti əsasında hüquq pozuntularının qarşısının alınması məqsədi ilə göstərilən xidmətin dayandırılmamasına, informasiyanın saxlanılması xidmətinin göstərildiyi halda informasiyanın silinməməsinə və ya ona çıxışın məhdudlaşdırılmamasına görə - fiziki şəxslər şərti maliyyə vahidinin otuz beş mislindən qırx mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidinin doxsan misli miqdarında, hüquqi şəxslər şərti maliyyə vahidinin üç yüz misli miqdarında cərimə edilir. (AR İXM, maddə 240-1.4.).*

6.13. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin ~~15-ci fəslindəki~~ müvafiq maddələrində nəzərdə tutularsa və inzibati xəta haqqında işin konkret hallarını nəzərə almaqla cərimə ilə yanaşı, habelə cərimə əvəzinə inzibati cəzanın digər digər növləri (müsadirə, xəbərdarlıq) tətbiq edilə bilər.

*6.14. İnzibati xəta törətmiş şəxs ona təyin olunmuş cəriməni bu barədə qərarın qanuni qüvvəyə minməsindən və ya təxirə salınmasından, yaxud onun icrasına möhlət verilməsi müddəti keçdikdən sonra 30 gündən gec olmayaraq ödəməlidir. Həmin müddətdə inzibati cərimə ödənilmədikdə, onun ödənilməsi məqsədi ilə inzibati cərimənin tətbiq edilməsi haqqında qərarın surəti həmin qərarı qəbul etmiş vəzifəli şəxs tərəfindən:*

*Fiziki şəxslər barəsində onun əmək haqqından, təqaüdündən, pensiyasından və ya digər gəlirlərindən tutulması üçün inzibati məsuliyyətə cəlb edilmiş şəxsin işlədiyi və ya oxuduğu, yaxud əmək haqqı aldığı müəssisəyə, idarəyə, təşkilata;*

*Hüquqi şəxslər barəsində hüquqi şəxsin pul vəsaitlərindən və ya gəlirindən tutulması üçün, ona bank xidmətlərini göstərən banka və ya digər kredit təşkilatına göndərilir. Bank və ya digər kredit təşkilatı qərarı onun daxil olduğu vaxtdan 7 gün müddətində icra edir. Həmin müddət ərzində hüquqi şəxsin hesabında pul vəsaiti olmadıqda, bank və ya digər kredit təşkilatı inzibati cərimənin tətbiq edilməsi haqqında qərarı, onun icra edilməməsi səbəbini göstərməklə, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin həmin qərarı qəbul etmiş səlahiyyətli vəzifəli şəxsinə dərhal qaytarmalıdır. Göstərilən müddətdə cərimə ödənilməsə, onun məcburi tutulması «Məhkəmə qərarlarının icrası haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada məhkəmə icraçısı vasitəsilə həyata keçirilir.*

***«Azərbaycan Respublikası Mərkəzi İcra Hakimiyyəti Orqanlarının Normativ Hüquqi Aktlarının Bülleteni»ndə dərc edilmişdir (2001-ci il, № 9, səh. 28) («VneshExpertService» LLC).***

***25 aprel 2006-cı il tarixli, 90 nömrəli; 28 noyabr 2007-ci il tarixli, 211 nömrəli; 08 may 2008-ci il tarixli, 88 nömrəli əmrlərə əsasən əlavələr və dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*«Rabitə qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə inzibati tənbehlərin tətbiqi haqqında Qaydalar»a*
***Əlavə № 1***

# *Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi rabitə qaydaları əleyhinə inzibati xəta haqqında*

# *Protokol №*

«____»___________200___il                    _________________________________

*(protokolun tərtib edildiyi yer)*

Mən,_________________________________________________________________________________

*(protokolu tərtib edən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı)*

_______________________________________________________________________________

*(barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin adı, ünvanı, VÖEN, bankın adı)*

_______________________________________________________________________________

Araşdırma apararkən aşağıdakı inzibati xətanın törədildiyi müəyyən edildi:

_______________________________________________________________________________

*(inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti)*

_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________

Göstərilən hərəkətlərə_________________________________________________________

*(fiziki şəxsin soyadı, adı, atasının adı)*

_______________________________________________________________________________

*(hüquqi şəxsin adı və ünvanı)*

_______________________________________________________________________________

tərəfindən Respublikanın İnzibati Xətalar Məcəlləsinin__________________________________

maddəsi ilə nəzərdə tutulmuş inzibati xəta törədilmişdir.

_______________________________________________________________________________

*(şahidlərin və zərərçəkmiş şəxslərin adı, atasının adı, soyadı və yaşadıqları yerin ünvanı)*

_______________________________________________________________________________
_______________________________________________________________________________

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi nümayəndəsinin izahatları:_____________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________

İnzibati xəta haqqında iş üzrə icraat üçün zəruri olan başqa məlumatlar:____________________
_______________________________________________________________________________
_______________________________________________________________________________
_______________________________________________________________________________

Barəsində inzibati xəta haqqında protokol tərtib edilən fiziki və ya hüquqi şəxsə və ya onun nümayəndəsinə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 371, 374-cü maddələrinə əsasən hüquqları izah edilmişdir.

Protokolla tanış oldum:____________________________________________________________

*(barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin və ya*

____________________________________________________________________________

*onun nümayəndəsinin imzası)*

Protokolu almaqdan imtina etdi:_____________________________________________________

*(barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan*

______________________________________________________ ______________________

*şəxsin və ya onun nümayəndəsinin vəzifəsi, soyadı, adı, atasının adı) /imzası/*

Qeyd: Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki və ya hüquqi şəxsin nümayəndəsi protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya hüquqi şəxsin nümayəndəsinin izahatlar və protokolun məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə protokolu imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüquqları vardır. (Bu halda izahat və mülahizələr protokola əlavə olunur).

Protokolun surətini aldım: ________________ ____________ __________

*(soyadı, adı, atasının adı)* *(imzası)* *(tarix)*

Protokolu tərtib edən şəxs: ______________________________ __________

*(vəzifəsi, soyadı, adı, atasının adı)* *(imzası)*

**M.Y.**

---

# *Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi*

## *İnzibati tənbeh vermə* haqqında
## Qərar

***№________***

***«_______»___________________il _______________________________şəh.***

*Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin*

___________________________________________________

____________________________________________________________________________

*(tutduğu vəzifə, soyadı, adı, atasının adı)*

____________________________________________________________________________

*(protokol tərtib edilmiş şəxsin iş yeri, vəzifəsi, soyadı, adı, atasının adı)*

____________________________________________________________________________

____________________________________________________________________________

________________________________________________________________________ haqqında

tərtib edilmiş «____»_________________ *20* __-ci il tarixli

№-li protokola baxaraq müəyyən etdim ki, ___________________________________________________

_________________________________________________________________________________________

_________________________________________________________________________________________

*(işə baxılarkən müəyyən edilmiş qanunun pozulmasının adı)*

Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin __________________________ maddəsini rəhbər tutaraq, **qərara aldım:**

_________________________________________________________________________________________

*(qanunu pozanın soyadı, adı, atasının adı)*

_________________________________________________________________________________________

*(pozulan normativ sənədlərin adı, bəndlərin nömrəsi)*

pozulduğuna görə ________________________________________________________ manat məbləğində inzibati cəriməyə cəlb edilsin. Cərimə *30* gündən gec olmayaraq ödənilsin.

*Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin*_______________________________________________________________

*(qərarı qəbul eden səlahiyyətli vəzifəli şəxsin adı, atasının adı, soyadı və tutduğu vəzifə)*

_________________

*(imza)*

***Qərarı aldım*** ___________________________________________________________________________

*inzibati məsuliyyətə cəlb olunmuş şəxsin soyadı və inisialı*

---

*«Rabitə qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə inzibati tənbehlərin tətbiqi haqqında Qaydalar»a*
***Əlavə № 3***

# *Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərinin Siyahısı*

*1. Məcəllənin 169-180-ci, 183-1-ci, 240-1.3-cü və 240-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — rabitə və informasiya texnologiyaları naziri, onun müavinləri, nazirliyin aparatının rəhbəri və onun müavini.*

*2. Məcəllənin 169-171-ci, 174-176-cı, 180-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin aparatının Tənzimləmə şöbəsinin müdiri və baş məsləhətçisi.*

*3. Məcəllənin 169-172-ci, 172-1-ci, 174-180-ci, 183-1-ci, 240-1.3-cü, 240-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin aparatının Dövlət müəssisələrinin fəaliyyətinin əlaqələndirmə şöbəsinin müdiri, müdir müavini və baş məsləhətçisi.*

*4. Məcəllənin 173-cü, 174-cü, 180-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin aparatının Dövlət müəssisələrinin fəaliyyətinin əlaqələndirmə şöbəsinin Poçt sektorunun müdiri və baş məsləhətçisi.*

*5. Məcəllənin 175-ci, 176-cı, 183-1-ci, 240-1.3-cü, 240-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin aparatının İnformasiya cəmiyyətinin inkişafı şöbəsinin müdiri.*

*6. Məcəllənin 169-172-ci, 174-176-cı, 180-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Dövlət Radiotezliklər İdarəsinin rəisi.*

---

*© VneshExpertService LLC*